# Azərbaycanda siyasi dialoq uğurla aparılır

Prezident İlham Əliyev keçən il aprel ayının 23-də Nazirlər Kabinetini formalaşdırdı. Ölkədə bir sıra dövlət idarələrinin restrukturizasiyasına start verildi. Kadr və institusional dəyişikliklər 2019-cu ildə də davam etdirildi. Bir sıra idarələrin rəhbərləri dəyişdirildi. Eyni zamanda, ölkə başçısı Prezident Administrasiyasının yeni strukturunu (AP) təsdiqlədi.

Prezident İlham Əliyev kadr islahatlarının, o cümlədən dövlət məmurlarının tərkibinin cavanlaşdırılmasına yönəldiyini vurğuladı. Dövlət başçısının sözlərinə görə, yaşlı kadrlar Azərbaycanın gələcək uğurlu inkişafını təmin etmək məqsədilə öz iş yerlərini gənc nəslin nümayəndələrinə verməlidirlər. İslahatlar parlamentdən də yan keçmədi. Belə ki, 9 fevral 2020-ci ildə Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi haqqında qərar qəbul olundu. Yeni Azərbaycan Partiyası Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi təklifi ilə çıxış edərək bildirmişdi ki, parlamentin bir çox deputatları 70 yaş həddini keçmişlər və buna görə də, gənclərə meydan verməlidirlər. Hazırda yeni parlamentin heyətində gənc deputatlar üstünlük təşkil edirlər.

Heç kimə sirr deyil ki, Azərbaycanın siyasi sistemi çoxpartiyalılıq və plüralizm ilə səciyyələnir. Ölkədə siyasi partiyalar qanunvericilik və yerli özünüidarəetmə orqanlarında nümayəndəlik vasitəsilə dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak etmək imkanına malikdir. Xüsusilə qeyd etmək lazımdır ki, müstəqilliyimizin bərpa olunmasından sonra ümummilli lider Heydər Əliyev hüquqi dövlət qurmaq yolunda irəliləyən Azərbaycanda sərbəst siyasi fəaliyyət üçün hər cür şərait yaratdı. Bu, çoxsaylı siyasi partiyaların meydana çıxması ilə müşayiət olundu. Hazırda 62 siyasi partiyanın dövlət qeydiyyatına alınması ölkəmizdə siyasi plüralizmin və çoxpartiyalı sistemin inkişafının parlaq təzahürüdür.

Qeyd etmək lazımdır ki, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin möhkəm təməl üzərində qurulması, partiyalararası dialoqun genişləndirilməsi Prezident İlham Əliyevin fəaliyyətinin mühüm prioritetləri sırasındadır, hazırda bu sahədə mühüm islahatlar həyata keçirilir. 2020-ci il fevral ayında ölkəmizdə Milli Məclisə azad və demokratik seçkilərin keçirilməsi, yeni çoxpartiyalı parlamentin formalaşması, müxtəlif partiyaların nümayəndələrinin Milli Məclisin rəhbərliyində və onun komitələrində təmsil olunması, əlbəttə ki, siyasi mədəniyyətin, siyasi qüvvələr arasında əməkdaşlığın daha bir parlaq nümunəsidir.

Artıq, demək olar ki, ölkəmizdə demokratik ənənələrin formalaşmasına xidmət edən siyasi partiyalararası dialoq intensivləşir. Prezident Administrasiyasında partiya nümayəndələri ilə mütəmadi görüşlər keçirilir və belə görüşlərin aparılması ictimai maraq doğuran məsələlərin açıq müzakirəsi və ölkənin hərtərəfli inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev partiyanın VII qurultayındakı çıxışında da bildirdi ki, YAP-ın ölkə daxilində heç bir siyasi qurumla problemi yoxdur. “Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik. Bu prosesə müharibədən əvvəl start verildi və hesab edirəm ki, qısa müddət ərzində yaxşı nəticələr əldə olundu”, – deyən ölkə başçısı xüsusilə vurğuladı ki, özünü siyasi qurum adlandıran antimilli şura istisna olmaqla, bütün siyasi qüvvələr dialoqa meyil göstərmişlər, iqtidar partiyasının təşəbbüsünü alqışlamışlar və artıq bu dialoq baş tutmuşdur. Bundan başqa, Prezident İlham Əliyev bu gün siyasi dialoqun aparıldığını və bunu çox təqdir etdiyini vurğulamaqla yanaşı, həm də hesab etdiyini açıqladı ki, Azərbaycanın gələcək siyasi sistemi üçün, siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var.




***Azərbaycanda ötən ilin ən mühüm hadisələri İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Qələbə və Prezident İlham Əliyevin hələ 18 aprel 2018-ci il tarixində andiçmə mərasimində irəli sürdüyü islahatların ölkə həyatının müxtəlif sahələrində davam etdirilməsi oldu. O zaman dövlət başçısı yaxın illər ərzində respublikanın daxili və xarici siyasətinin prioritetlərini müəyyənləşdirmiş, o cümlədən demokratik islahatların davam etdirilməsinin və iqtisadi dəyişikliklərin dərinləşdirilməsinin əhəmiyyətini vurğulamışdı. Bu gün islahatlar bütün sahələri əhatə edir və günün reallıqlarına uyğun həyata keçirilir. Yeni Azərbaycan Partiyasının bu il martın 5-də keçirilmiş VII qurultayında qəbul olunmuş qərarlar və səsləndirilən bəyanatlar bütün bunları təsdiqləməklə yanaşı, iqtidar partiyasının Azərbaycanın bundan sonra da aparıcı siyasi qüvvəsi kimi fəaliyyət göstərəcəyinə olan inamı daha da gücləndirir.***

İkinci Qarabağ müharibəsində siyasi partiyaların birləşərək Azərbaycan Ordusuna, müzəffər Ali Baş Komandana dəstək vermələri, ölkəmizdə milli və siyasi həmrəylik nümayiş etdirmələri iqtidar partiyasının uğurla apardığı siyasi dialoqun məntiqi nəticəsidir.

Ümumiyyətlə, bu gün siyasi partiyaların əksəriyyəti respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir. Onlar dövlət siyasətinin aktual məsələləri barədə öz fikirlərini bildirir, ictimai təşəbbüslərlə çıxış edirlər. Hazırda Azərbaycanın siyasi palitrasında təmsil olunan bütün partiyaların normal fəaliyyət göstərməsi üçün geniş imkanlar var. Onlar qərargahlarla, texniki avadanlıqla təmin olunur, müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, kütləvi tədbirlər keçirir, seçki prosesində iştirak edir və s. Şübhəsiz, cəmiyyətimizdə vətəndaş həmrəyliyinin və milli birliyin möhkəmlənməsinə, ümumiyyətlə, Vətənimizin hərtərəfli tərəqqisinə və dirçəlməsinə töhfə verən siyasi qüvvələrə kömək göstərmək Azərbaycan iqtidarının əsas istəyi və məqsədidir. Xatırladaq ki, Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firəvan həyatının təmin edilməsidir.

Hazırda YAP öz sıralarında 700 mindən çox vətəndaşı birləşdirən Cənubi Qafqaz regionunun ən böyük siyasi partiyasıdır. Bu fakta toxunan Prezident İlham Əliyev qurultaydakı nitqində bildirdi ki, YAP-ın böyük ənənələri var. Gələn il partiyanın 30 illik yubileyi keçiriləcək. “Hesab edirəm ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir. Həyat dəyişir, zəmanə dəyişir”, – deyən ölkə başçısı, həmçinin əlavə etdi ki, iqtidar partiyası ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə, o cümlədən siyasi islahatlar sahəsində də tətbiq etməlidir: “Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm”.

YAP-a dost partiyaların partiyaya qoşulması da bunu göstərir. Bunu çox önəmli, əlamətdar hadisə adlandıran ölkə başçısı əmin olduğunu da vurğuladı ki, bir neçə partiyanın Yeni Azərbaycan Partiyası ilə birləşməsi partiyanı gücləndirəcək. Əlbəttə, iqtidar partiyasının daxili və xarici siyasətdə əldə etdiyi uğurlar ölkənin digər partiyalarının YAP-a birləşməsinə səbəb yaratdı.

Aydındır ki, islahatların miqyası və dərinliyi cəmiyyətə xas olan dinamikanı, onun uyğunlaşma qabiliyyətlərini, böyümə sürətini və inkişaf potensialını, eyni zamanda, mövcud ziddiyyətlərin və münaqişələrin qarşısının alınması və aradan qaldırılması vasitələrini xarakterizə edir. Dünya sürətlə dəyişir, Azərbaycanın da bu dəyişikliklərin doğurduğu yeni çağırışlara adekvat reaksiya göstərməsi zərurət kimi önə çıxır. YAP-ın VII qurultayında qəbul edilmiş qərarlar bir daha təsdiqlədi ki, Yeni Azərbaycan Partiyası cəmiyyətin və dövlətin davamlı inkişafını təmin etmək, qarşıya qoyulmuş məqsədlərə daha çevik və operativ reaksiya göstərilməsinə imkan verəcək islahatlara açıq olan siyasi qüvvədir. Qurultayda yekun olaraq təşkilati məsələlər müzakirə edilmiş və Yeni Azərbaycan Partiyasının 40 nəfər tərkibdə İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası və yeni qurum kimi YAP Veteranlar Şurasının 35 nəfərlik tərkibi təsdiq olunmuşdur. Bundan başqa, Mehriban xanım Əliyeva Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini təyin edilmişdir.

Beləliklə, siyasi çəkisinə və siyasi sistemdə oynadığı rola görə həmişə fərqlənən YAP struktur islahatlarına gedərək yeni reallıqlara uyğun fəaliyyət göstərəcəyini və inkişaf edəcəyini nümayiş etdirdi. Şübhə yoxdur ki, bütün bu struktur islahatları və qurultayda qəbul olunmuş qərarlar Yeni Azərbaycan Partiyasının sıralarının kəmiyyət və keyfiyyət baxımından daha da zənginləşməsinə şərait yaratmaqla yanaşı, Azərbaycanın avanqard siyasi qüvvəsi kimi yeni-yeni hədəflərin reallaşmasına növbəti güclü təkan verəcək.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***